2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 sentyabr 2015-ci il tarixli 06 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 26 sentyabr 2015-ci il

2015-ci il sentyabrın 23-də 72 saylı Yardımlı-Masallı seçki dairəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş Ağazadə Ənvər Sərdar oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək onun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində müəyyən edilmişdir ki, namizədin müdafiəsi üçün iki imza vərəqəsində olan 100 seçici imzası seçki dairəsinin ərazisində olan müvafiq bələdiyyələrin iştirakı ilə onların üzvləri və qulluqçuları tərəfindən toplanılmışdır. Bununla da, Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələbi pozulmuşdur. Belə ki, həmin maddəyə görə, dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir.

Eyni zamanda imza vərəqələrinə seçici kimi daxil edilmiş 40 nəfərin həmin seçki dairəsinin ərazisində qeydiyyatda olmadıqları və yaşamadıqları müəyyən edilmişdir. Seçki Məcəlləsinin 56.2-ci maddəsinin tələbinə əsasən namizədin müdafiəsi üçün seçicilərin imzaları onun irəli sürüldüyü seçki dairəsinin ərazisində toplanmalıdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş məlumatlara əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 72 saylı Yardımlı-Masallı seçki dairəsi dairə seçki komissiyasının Ə.S.Ağazadənin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 21 sentyabr 2015-ci il tarixli 11/32 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və

müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə   g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 72 saylı Yardımlı-Masallı seçki dairəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş Ağazadə Ənvər Sərdar oğlunun 23 sentyabr 2015-ci il tarixli 06 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və dairə seçki komissiyasının 21 sentyabr 2015-ci il tarixli 11/32 saylı qərarı qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü    Iradə Hacıyeva